**Güneyimizin Güney ədəbiyyatı antologiyasını vərəqləyərkən...**
**Hər yubiley bədii sözə bir baxışdır**



Söz əhlinin, şairlərin, yazıçıların təkrarsız xüsusiyyətləri var. Tərifi lazım olduğundan da çox sevirlər. Xüsusilə, beş-on ildən bir düzənlənən yubleylərdə tənqidi kənara atıb o ki var bir-birini tərifləyirlər. Tərifdən isə mübahisə, dava-dalaş, pərtlik çıxmaz. Buna görə də məclis iştirakçıları yeri gələndə səbirlərini basmağa üstünlük verirlər.

İndi təsəvvürümə gətirirəm ki, ədəbiyyatşünas alim Esmira Fuad dahəmin çətinliklərsiz ötüşməyib. 2018-ci ildə Şimalımız üçün "Günümüzün Güney ədəbiyyatının antologiyası. Poeziya" kitabının ərsəyə gətirərkən bu kiçik duyğulara da nəzər salıb, amma öz işini görür.  İmkanı qədər Cənubi Azərbaycanlıların ən yaxşılarını bir kitabda cəmləşdirərək antologiya yaradıb. Ən əvvəl tanınmş söz ustadlarının, tənqidçilərin köməyi ilə bütöv ölkəni qarış-qarış gəzib, məsləhət bildiklərini yeni nəşrin bazasında toplayıb.

Yeri gəlmişkən, şair xalqın bu kitabda 114 yazarının qısa yaradıcılıq yolu və şeirləri ifadəsini tapdığından biz yalnız və yalnız təftişçilik aparmadan bəri başdan nəşrdə zəhməti olanların hər birinə minnətdarlığımızı yetiririk. O cümlədən, tərtibçi və ön sözün müəllifi Esmira Füada, baş məsləhətçi Rəsul Qadiriyə, editorlar Fikrət Süleymanoğluna, Elşən Böyükvəndə, rəyçilərdən Əli Daşqına, Fəranək Fərid İpəkə, İsmayıl Ülkərə, Məsud Haraya və Saleh Səccadiyə...

Yeri gəlmişkən qeyd edək ki, bu kitabda Güneyli-Quzeyli bütün ədəbiyyatsevərlərin səyi və zəhməti olub desəm yanılmaram. Bu baxımdan sənətkarlıq xüsusiyyətlərinin bəzən gözlənilmədiyini qınamağa dəyməz. Gəlin biz kəsə gedib ən yaxşılarını axtarıb tapaq. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şūrası layihəyə əməli kömək göstərdiyindən vəsait çatışmazlığı olmayıb. Kitabı Bakının "Elm və Təhsil" nəşriyyatı çap edib.

Bu sətirləri yazarkən toplumun beş yaşı tamam olurdu. Tərtibçi  yəqin redaksiya heyətilə birlikdə hadisəni qeyd etməyə hazırlaşdığından qayğıları başından aşırdı.

Hazırda həmin insanların hər biri azı beş il yaşlanıb. Həyat təcrübəsi isə bambaşqa şərtdir.

Beş il əvvəl yazılanların bir qismi adama bir qədər yuxu kimi gəlir. Onların əksəriyyəti yaradıcılığa 40 il əvvəl başlayıb. Sıralarında mübarizə səngərləri görən, dar ağaclarını, sürgünləri, mühacirəti... seçənlər az olmayıb. Əksərinin həyatını sınaqlar yarı yolda saxlayıb.

Yaradıcılığa əsasən folklor nümunələri ilə başlayan, eşqdən, güldən, bülbüldən... yazan gənclərin yaradıcılığına nəzər salanda dodaqlar gülümsünür, qaçır. Kitabın anotasiyasında deyilir: Antologiyaya İran İslam İnqlabindan sonra ədəbiyyata gəlmiş Azərbaycan şairlərinin ana dilində fərqli janrlarda və fərqli üslublarda qələmə aldıqları məsələlər daxil edilmişdir. Bu əsərlər günümüzün Güney poeziyasında baş verən proseslərin incəliklərini izləmək, yazarların dünyaya, ictimai-siyasi və mədəni məsələlərə baxışlarını öyrənmək baxımından olduqca diqqətə layiqdır.

Kitab Azərbaycan ədəbiyyatı mütəxəssisləri, universitetlərin filologiya fakültələrinin tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Meşkinşəhrli Nigar Xiyavinin “Kimin qızıyam?” şeiri ilə başlayan, Qaradağın Böyük Qayabaşı kəndindən olan Rəhman Gülməhəmmədinin “Daha”sı ilə bitən bu poeziya nümunələrinin səmimi nümunələri ilə tanışlıq səbirli oxucu işidir. Yenicə başa çatmış ötən ilin yubilyarları ilə tanışlıq bizə 1963-1968-ci illərdə 60-65 yaşı tamam olanları tanıtdırır. İndi kimsənin onları naşılıqda, xamlıqda qınaması yerinə düşməzdi. Elə reyli Rüqayyə Kəbiri və Təbrizli Süsən Nəvadehi Rəzi kimi. Hər ikisi 60-ı haqlayıb. R.Kəbirinin və Süsən xanımın şəhrəti nəinki Cənubi Azərbaycanın, eləcə də bütün İranın guşələrini gəzir desək, yanılmarıq. Birincinin şeirlər toplusu və hekayələri, ikincinin isə “Hanı o Təbriz?”i dillər əzbəridir. Araz Əkbəroğlunun şöhrəti Xoyun hüdudlarından, Əhməd Dərgahinin Meşkinşəhrdən, Yaqub Naminin Qaradağ mahalının Səphanə kəndindən, Rəsul Yunanın Urmiyadan, nəhayət Səhər Xiyavinin eyni adlı şəhərindən kənarda tanınması onların sənətdən yoğrulan poeziya çələnginin nəticəsidir.

Yubileylər haqqında qısa xülasəmizə yubilyarlardan Səhər Xiyavinin “Azərin iyrimi biri” şeirindən bir parçanı və “O gün uzaqda deyil”i əlavə edirik.

## Azərin iyrimi biri

Sazaqlı bir gündə Təbriz şəhərin,
Gəzirəm yadınla dolanbadolan.
Sən oldun ana dil, vətən sevgisin
Duyğu əllərinlə könlümə salan.

Sarıl əmniyətə gömülübdü vay,
Çırtmaq vur, diksinsin pəncərəm yenə!
Könlümün sərçəsi nə yaman uyub
Bir kor tələlərə səpilmiş dənə!

Necə mən sevincdən, sevgidən yazım?!
Doğranır dilimdə anamın dili.
Saat qabağından keçən zamanı
Əyilir içimdə atamın beli.

Bərnovlar şaqqıldır, əfsərlər düşür,
Qar üstə sürünür gül yanaqları.
Ağapaq köynəklər qana bürünür
Baltalar doğrayır gül budaqları.

Necə arsız yazım sarı sevgidən?!
Güllə-güllə yanır ürəyim başı.
Gördükcə bu şəhid söyüdləri mən
Kəsmədən tökülür gözümün yaşı.

Yanılır türkücə kitablarımız,
Azər də qor çəkir, içimdən mənim.
Kitablar alışır kəlməbəkəlmə
Yoxsa sellül-sellül bədənim mənim?!

Bir ildə qurulmuş şanlı sərgini
Xəzan tez sovurdu apardı külək.
Qoymadı doyunca bir tamsınaraq
Bu dilin, bu elin şanını görək.

Sevgilim bağışla, bağışla məni!

Mən sənə yarayan yoldaş olmadım.
Əkdinsə qəlbimdə gül-çiçəkləri
Bu bağa vəfalı bağban qalmadım!

Azərin bu qəmli, sazaqlı günü,
İyirmibir gülləylə könlümü yaxın!
Suçlayın, hovlayın bu girtəsizi
Asılmış gövdəmə əl çalın, baxın! ..

## O gün uzaqda deyil...

Qızıl qəfəsin təkliyində kal darıxmalarım
kəndir asmış, boğur məni.
göyün mavi köksündə
qiyha çəkib azad qanad çalan quşlarda həsrətli baxışlarım,
zəhər olsun bu dən, bu su
başımı azıdan torlar, tələlər!!
Aaa...x qadir ovçu!
aç əl-ayağımdan bu ağır qandalları!
Gözlərimdən sonsuz axan yağmurlar
isladıb qartallığımın qanadlarını.
Elə ağırlaşmışam ki, uça bilmirəm bunsuz da,
amma inanma dinc oturacam...
Mən boğaz-boğaz əl günəşi çağıracam,
işıqlığı çağıracam.
Əminəm, bir gün fəryadım
yırtacaq örəyin qara gecənin,
boğazımdan canıxmış qan fışqıracaq üzünə,
günəş qonaq gələcək yurdumuza,
qurudacaq islaq qanadlarımı
və bir dişi qartalın öncül uçuşun hamı barmaqla görsədəcək!!
O gün uzaqda deyil...

**Rəhim Hüseynzadə,**
**Azərbaycanın əməkdar jurnalisti**